# BEST PLUS

**4x10 ml flakon**

**Tərkibi:** 1 flakonda/10 ml (1 ml-də 25 damcı)

| | |
|---|---|
| Vitamin D3 (*Cholecalciferol*) | 50000 BV |
| Vitamin K2 (*Menaquinone*) | 40 mkq |

**Xüsusiyyətləri: BEST PLUS** tərkibndəki komponentlər hesabına orqanizmdə (sümüklərdə, dişlərdə, dırnaqlarda, saçlarda, əzələlərdə) kalsium və fosfor mübadiləsini tənzimləyən kompleks preparatdır.
**D vitamini (xolekalsiferol)** yağlarda həll olan vitaminlərə aiddir. D vitamini qidalarla alınan kalsiumun bağırsaqlardan sorulub qana keçməsini və qanda kifayət qədər kalsium olmadıqda, sümüklərdən qana kalsiumun keçməsini təmin edir. Uşaqlarda böyümə və sümük inkişafı üçün hüceyrə bölünməsində iştirak edir. D vitamini həmçinin orqanizmdə limfokinlərin sintezini artırmaqla immun sistemini gücləndirir.
**$K_2$ vitamini** sümük metabolizmində mühüm rol oynayan bir vitamin növüdür. Bu vitamin həmçinin sümük metabolizmində müxtəlif funksiyaları yerinə yetirən protrombin adlı zülalın istehsalı üçün lazımdır. $K_2$ vitamini, qandaki kalsiumun sümüklərdə və dişlərdə toplanmasını təşkil edərək bu toxumaların güclənməsini təmin edir, kalsiumun damar və böyrək kimi yumşaq toxumalarda toplanmasının qarşısını alır. D vitamini ilə bərabər $K_2$ vitamininin qəbulu kalsium və fosforun sorulmasını artırır.

## İstifadəsinə tövsiyələr:

- D vitamini çatışmazlığının profilaktikası və müalicəsi
- Raxit və raxitəbənzər hallar
- Hipokalsiemik tetaniya
- Osteomalyasiya
- Metabolik osteopatiyalar (hipoparatireoz və psevdohipoparatireoz)
- Osteoporozun müalicəsində (həmçinin postmenopauza dövründə)

**İstifadə qaydaları və doza:**

1.5-4 yaş arası uşaqlar: 2-3 damcı,
4-14 yaş arası uşaqlar: 3-4 damcı,
14 yaşdan yuxarı uşaqlar və böyüklər: 6 damcı.

**Əks göstərişlər:** Məhsulun tərkibində olan hər hansı komponentinə qarşı həssaslıq.
**Buraxlış forması:** İçlik vərəqə ilə karton qutuya yerləşdirilmiş 4 ədəd 10 ml-lik flakon
**Yararlılıq müddəti:** 3 il
**Saxlanma şəraiti:** 25°C-dən yüksək olmayan temperaturda, quru və uşaqların əli çatmayan yerdə saxlanılmalıdır.
**İstehsalçı: İlaçsan Medikal Sanayi ve Dış Ticaret Limited Şirketi.**
**İstehsalçının ünvanı:** Osmangazi Mah.2684. SK. A Blok NO: 3 İç Kapi No. 4, Esenyurt/İstanbul/Türkiyə
*GESFRELEB GmbH Almaniya şirkətinin sifarişi əsasında hazırlanmışdır.*
*Beynəlxalq akkreditasiya olunmuş **LotusLab** labratoriyası tərəfindən analiz edilmişdir.*

ANIMED